# Türk dünyası üçün qürurverici hadisə



**26 oktyabr 2021-ci il Azərbaycan dövləti və xalqı üçün tarixi və qürurlu bir gün oldu. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanı gətirən təyyarə Füzuli Beynəlxalq Hava Limanına eniş etdi. İki qardaş dövlətin və iki qardaş liderin işğaldan azad edilmiş Füzuli rayonunda görüşü Türk dünyası üçün qürurverici hadisəyə çevrildi. Dövlət başçıları, cəmi 8 aya tikilib istifadəyə verilmiş Füzuli aeroportunun açılışını etdilər. Sevindirici haldır ki, Füzuli Beynəlxalq Hava Limanına gələn ilk rəsmi qonaq da qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti oldu. Bu, cənab Ərdoğanın işğaldan azad edilmiş torpaqlara ikinci səfəri idi.**

Türkiyə Prezidentinin Azərbaycana budəfəki rəsmi səfərinin məhz Qarabağa etməsinin xüsusi önəmi var idi. Bu, Ermənistana, revanşist qruplara, onlara havadarlıq edən xarici dövlət və siyasi qurumlara bir mesaj oldu: Qardaş ölkə prezidentləri Zəngəzur dəhlizinin avtomobil yolunun təməlini qoydular. Bu avtomobil yolu Zəngilandan başlayaraq İstanbula qədər çəkiləcək. Zəngəzur dəhlizinin istifadəyə verilməsi region dövlətləri ilə yanaşı, türkdilli dövlətlərin də iqtisadi inkişafına böyük töhfə olacaq.

Dövlət başçıları Zəngilanda bir sıra sosial obyektlərin, Qarabağ və Şərqi Zəngəzur bölgəsində aqrar sənayenin inkişaf etdirilməsi üçün birgə müəssisələrin yaradılmasını nəzərdə tutan Aqroparkın təməlini qoydular.

Ölkə başçıları Zəngilanda keçirilən mətbuat konfransında bir sıra mühüm məsələlərə toxundular. Möhtərəm Prezidentimizin də qeyd etdiyi kimi, Prezident Ərdoğanın sayəsində Türkiyə bu gün dünyada güclü və qüdrətli bir dövlətə çevrilib. Dünyada gedən bütün siyasi proseslərdə Türkiyənin mövqeyi nəzərə alınır və qardaş ölkə dünya siyasətində çox önəmli yerdə durur. Bir neçə gün bundan əvvəl dünyanın on böyük dövlətinin Türkiyənin daxili işlərinə qarışmaq niyyətinin qarşısı alındı və bu dövlətlər cənab Ərdoğanın qətiyyətli cavabını eşidəndən sonra səhv etdiklərini başa düşdülər.

Türkiyə Prezidentinin bir neçə gündən sonra İtaliyada böyük dövlətlərin G20 Sammitində ABŞ Prezidenti Co Baydenlə görüşü nəzərdə tutulub. Bu, sübut edir ki, Türkiyə dünyada bütün siyasi proseslərə təsir edə biləcək bir dövlətdir. Çox güman ki, bu görüşdə Azərbaycanın mövqeyi də müzakirə olunacaq və Türkiyə tərəfindən müdafiə olunacaq. Türkiyənin dünyada güclü dövlətə çevrilməsi Azərbaycanın gücünü daha da artırır.

Bu gün Azərbaycan və Türkiyə bütün sahələrdə, xüsusilə, siyasi müstəvidə eyni kursu həyata keçirirlər. Əsas məqsədlərdən biri də türkdilli dövlətlərin birliyinin, həm iqtisadi, həm də siyasi cəhətdən gücləndirilməsidir. Noyabr ayında Türkdilli dövlətlərin sammiti keçiriləcək və quruma sədrlik Türkiyəyə keçəcək. Türkdilli dövlətlərin bu vəhdəti gələcəkdə dünyada güclü bir birliyə çevriləcək. Bunun üçün siyasi iradə və istəyin olması göz qabağındadır. İki qardaş ölkənin prezidentlərinin də istəyi ondan ibarətdir ki, türkdilli xalqlar rifah içində yaşasınlar. Çətin günlərdə, şad günlərdə bir yerdə olsunlar. Necə ki, Türkiyə ilə Azərbaycan hər zaman bir-birinin yanındadır.

Bu gün müharibədə olduğu kimi, Qarabağ və Şərqi Zəngəzurun quruculuq işlərində də Türkiyə Azərbaycanın yanındadır. Azərbaycan və Türkiyə birlikdə ermənilər tərəfindən viran qoyulmuş ərazilərimizi cənnətə çevirəcəklər. Azərbaycan və Türkiyə qardaşlığı əbədidir. Heç kəs bu dostluğu və qardaşlığı sarsıda bilməz.

*__Kamilə ƏLİYEVA,__*
*__Milli Məclisin deputatı, BDU-nun kafedra müdiri, professor__*